*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 yanvar 2020-ci il № 1 (2419) Qiyməti 30 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Əminəm ki, bizim ardıcıl, düşünülmüş siyasətimiz Dağlıq Qarabağ münaqişəsinin həllinə gətirib çıxaracaq

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər, öz mövqeyini ortaya qoymuşlar.*



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirib.

BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair dörd qətnamə qəbul etdiyini, həmçinin bir sıra digər beynəlxalq təşkilatların da oxşar qərar və qətnamələr qəbul etdiklərini xatırladan dövlətimizin başçısı deyib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilib. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

"İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, bizim ardıcıl, düşünülmüş siyasətimiz münaqişənin həllinə gətirib çıxaracaq: "İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım - bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılmışdır".

## Həzi Aslanovun 110 illiyi qeyd ediləcək

*Prezident İlham Əliyev görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Müdafiə Nazirliyi, Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirməlidir. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Sərəncamda bildirilir ki, 2020-ci ilin yanvar ayında görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illiyi tamam olur.

Bəşəriyyətin yaddaşına ən dağıdıcı müharibə kimi yazılmış İkinci Dünya müharibəsi zamanı faşizm əleyhinə mübarizə aparılmasında və insanlığın qorxunc nasizm təhlükəsindən xilas edilməsində Azərbaycan xalqının da böyük xidmətləri vardır. 1941-1945-ci illərdə Azərbaycanın altı yüz mindən artıq övladı müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşmuş, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdir.

Xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlığın rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirib və hərb salnaməsində yeni parlaq səhifələr açıb. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir.

# Hərbi hissələrdə yeni obyektlər istifadəyə verilib

*Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olaraq dövlət quruculuğunun tərkib hissələrindən biridir. Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusu müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Son illər Azərbaycanda ordu quruculuğu ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər və ordunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan fundamental addımlar bu gün onu deməyə əsas verir ki, Azərbaycan Ordusu regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir.*



Azərbaycanın hərbi potensialının gücləndirilməsinə diqqət yetirən ölkə rəhbərliyinin məqsədyönlü siyasətinin nəticəsdir ki, bu gün Azərbaycan Ordusu nüfuzlu ölkələrin orduları səviyyəsinə çatıb. Qürurverici haldır ki, ölkəmiz bu uğura qısa bir vaxtda formalaşan güclü iqtisadiyyatı hesabına nail olub.



İqtisadi qüdrətin artmasının nəticəsidir ki, dövlətimiz ordunun hərtərəfli möhkəmləndirilməsinə, onun müasir döyüş texnikası ilə təchiz edilməsinə, hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksək səviyyəyə çatdırılmasına diqqət və qayğı ilə yanaşır. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin ölkənin müxtəlif bölgələrinə səfərləri zamanı hərbi hissələrdə olması, çətin şəraitdə Vətənə xidmət edən hərbi qulluqçuların əməyini yüksək qiymətləndirməsi həmin qayğının tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernizasiyası planına əsasən həyata keçirilən fəaliyyətlər davam etdirilir. Dekabrın 28-də hərbi hissələrdən birində qərargah və Təlim-Məşq Mərkəzinin yeni inzibati binalarının açılış mərasimi keçirilib.

Mərkəzin fəaliyyəti barədə Müdafiə naziri general-polkovnik Zakir Həsənova brifinq təqdim edilib. Məruzə olunub ki, mərkəz müasir və yüksək texnologiyalı simulyator qurğuları quraşdırılmış sinif, bütün kommunikasiya xətləri və digər zəruri avadanlıqlarla təchiz edilmiş inzibati və xidməti iş otaqlarından ibarətdir.

Bildirilib ki, mərkəzdə xüsusi kompüter proqramları ilə təmin olunmuş avadanlıqlar və trenajorlar şəxsi heyətin bilik və bacarıqlarının lazımi səviyyədə saxlanılmasına, tapşırıqlarının real döyüş şəraitinə uyğun, vaxtında və dəqiq yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirilməsinə imkan verir. Təlimatçılar tərəfindən hər bir öyrədilənin qarşısına ixtisasına uyğun olaraq şərti tapşırıqlar qoyulur, onların tapşırığı yerinə yetirməsi prosesi elektron xəritələrdə izlənilir və qiymətləndirilir.

Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin simulyator, eləcə də digər xidməti və inzibati otaqları ilə tanış olub.

* * *

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissələrdə yeni istifadəyə verilən bir sıra obyektlərin açılışında iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Müdafiə naziri ulu öndər Heydər Əliyevin "N" hərbi hissəsinin yeni inşa edilən qərargah binasındakı büstü önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib, "Fəxri ziyarətçi və qonaqlar" kitabını imzalayıb.

Yeni bina ilə tanış olan nazirliyin rəhbərliyinə burada yaradılan şərait barədə ətraflı məlumat verilib. Bildirilib ki, üçmərtəbəli qərargah binası 70-dən artıq xidməti və inzibati otaqdan ibarətdir. Bütün otaqlar mebel və kommunikasiya xətləri ilə təmin olunub. Bina mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və qaz ilə təchiz edilib.



Ərazidə abadlıq işləri aparılıb, yaşıllaşdırma sahəsi salınıb və 2500 müxtəlif növ ağac əkilib.

Sonra nazirliyin rəhbərliyi daha bir hərbi hissədə yeni inşa edilən ikimərtəbəli qərargahda və əsaslı təmirdən sonra istifadəyə verilən tibb məntəqəsində olub.

Bildirilib ki, qərargahdakı



35-dən artıq inzibati və xidməti iş otağı mərkəzləşdirilmiş istilik sistemi, işıq, su, qaz və kommunikasiya xətləri, lazımi mebel və avadanlıqlarla təmin olunub. Ətrafda abadlıq işləri aparılıb, 650 müxtəlif növ ağac əkilib.

İkimərtəbəli tibb məntəqəsi barədə də məlumat verilib. Bildirilib ki, müasir tibb avadanlığı ilə təchiz olunan məntəqə qəbul, təxirəsalınmaz təcili yardım, funksional diaqnostika, növbətçi həkim, ordinator, stomatoloji, prosedur və digər otaqlardan, eləcə də palatalardan, əşya anbarından, aptek və yeməkxanadan ibarətdir. Ərazidə abadlıq işləri aparılıb.

Tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verib, şəxsi heyətə xidmətlərində uğurlar arzulayıb və onları 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

* * *

Cəbhəboyu zonada səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa edilmiş növbəti hərbi hissənin açılışında iştirak edib.

Müdafiə Nazirliyinin rəhbər heyəti yeni istifadəyə verilən hərbi hissədə olaraq əsgər yeməkxanasına, əsgər yataqxanasına, silah və ideoloji otaqlara, ərzaq, meyvə-tərəvəz anbarlarına baxış keçirib.

Bildirilib ki, yeni tikilən hərbi hissədə inzibati, xidməti və iş otaqları mərkəzləşdirilmiş istilik sistemi, işıq, su, qaz və kommunikasiya xətləri, soyuducular, lazımi mebel avadanlıqları ilə tam təmin olunub. Ətrafda abadlıq işləri aparılıb, müxtəlif növ ağaclar əkilib.

Burada yaradılan şəraitlə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görüləcək işlərlə bağlı müvafiq tapşırıqlar verib.

* * *

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yeni xidməti mənzillərin təqdimetmə mərasimində iştirak ediblər.

İki hektardan çox ərazidə inşa edilən ailəli və subay hərbi qulluqçular üçün nəzərdə tutulan iki və üçotaqlı təmirli mənzillərdən ibarət binalar lazımi kommunikasiya sistemləri ilə təchiz olunub. Ərazidə abadlıq işləri aparılıb, asfalt döşənib və yaşıllaşdırma sahəsi salınıb.

Tədbir iştirakçılarını yeni mənzillərin verilməsi ilə bağlı təbrik edən Müdafiə naziri bildirib ki, hərbi qulluqçuların xidməti-məişət şəraitinin yaxşılaşdırılması ölkəmizin iqtisadi qüdrətinin və Ali Baş Komandanın Azərbaycan Ordusunun şəxsi heyətinə göstərdiyi yüksək diqqət və qayğısının təzahürüdür.

Mənzillər təqdim edilən hərbi qulluqçular bayram günü ailələrinə bəxş edilən sevincə görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü cəbhə bölgəsində xidmət edən hərbi qulluqçularla qeyd edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ön xətt mövqelərində döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiənin dayanıqlığı, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Bayram münasibətilə şəxsi heyətə təbriklərini və ən xoş arzularını çatdıran Müdafiə naziri xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandıraraq, onlara qiymətli hədiyyələr və bayram sovqatları təqdim edib.

Çay süfrəsi arxasında əsgərlərlə söhbət etdikdən sonra nazir ön xətdə xidmət edən şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı görülən işlərlə maraqlanıb və müvafiq tapşırıqlar verib.

Sonra Müdafiə naziri səyyar tibb hospitalına baş çəkərək burada müalicə olunan əsgərlərlə və hərbi tibb müəssisəsinin personalı ilə də görüşüb, onları bayramlar münasibətilə təbrik edərək hədiyyələr təqdim edib.

# Müdafiə naziri Hava Hücumundan Müdafiə bölmələrinin döyüş hazırlığını yoxlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin döyüş hazırlığını qəfil yoxlamaq məqsədilə Müdafiə Nazirliyinin rəhbərliyi yanvarın 2-də Hava Hücumundan Müdafiə bölmələrindən birində olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "həyəcan" siqnalı ilə qaldırılan bölmələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi, döyüş növbəsinin gücləndirilməsi, mühüm obyektlərin mühafizəsi və digər fəaliyyətləri məşq edilib.

Hava Hücumundan Müdafiə bölmələrinin döyüş texnikası və vasitələrinə baxış keçirən Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətin təlim-döyüş vərdişlərini yüksək qiymətləndirib.

2020-ci ildə şəxsi heyətə yeni uğur və nailiyyətlər arzulayan Müdafiə naziri döyüş tapşırıqlarının daha operativ və səmərəli yerinə yetirilməsi, eləcə də hava hücumundan müdafiə ilə bağlı cari ildə keçiriləcək tədbirlərlə əlaqədar müvafiq tapşırıqlar verib.



# Maddi-Texniki Təminat Baş İdarəsində 2019-cu ilin yekunlarına dair toplantı keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, Maddi-Texniki Təminat (MTT) Baş İdarəsində 2019-cu ilin yekunlarına dair toplantı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda MTT Baş İdarəsinin tabeliyində olan arsenal, baza, anbar və hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyəti, qoşun xidməti və hərbi intizamın təhlili aparılıb. Müvafiq xidmətlərə cavabdeh şəxslər görülən işlərə bağlı ətraflı məruzələrlə çıxış ediblər.

Yekunda Maddi-Texniki Təminat Baş İdarəsi rəisinin müavini - MTT qərargahının rəisi general-mayor Qədir Nəsibov çıxış edərək növbəti ildə hərbi hissələrin silah-sursat, ərzaq, əşya və əmlak təchizatı, eləcə də şəxsi heyətin sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı Müdafiə nazirinin tapşırıqlarını vəzifəli şəxslərə çatdırıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı birgə tədbirlər planı imzalayıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2020-ci il üçün birgə tədbirlər planı imzalanıb.

Plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək tədbirlərdə hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar bir sıra görüşlər keçiriləcək, eləcə də müxtəlif mövzularda məruzələr dinləniləcək və fikir mübadiləsi aparılacaq.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 yanvar 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***7 yanvar 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi hissələrdə “Açıq qapı” günü

*Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Azərbaycan Ordusunun bütün hərbi hissələrində əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib. Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalarına baş çəkiblər. Qonaqlar üçün müxtəlif döyüş texnikası və silahların nümayişi də təşkil olunub. Müdafiə naziri, nazir müavinləri, qoşun növü komandanlarının iştirakı ilə keçirilən "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunub, onları maraqlandıran məsələlərin müzakirəsi aparılıb, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçirilib, bayram sovqatları təqdim edilib.*



"N" hərbi hissəsində "Açıq qapı" günü yüksək səviyyədə təşkil edilmişdi. Valideynlərin bu mühüm tədbirdə iştirak etmələri, övladlarının xidmət yerləri, məişət şəraiti ilə tanış olmaları üçün hərtərəfli şərait yaradılmışdı. Hərbi hissənin yeməkxanasında Yeni ilin gəlişinin rəmzi olan yolka bəzədilmiş, işıqları yandırılmışdı. Valideynlər öz yerlərini tutmuşdular. Tədbirin başlanması üçün hər şey hazır idi...

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov "N" hərbi hissəsində keçirilən "Açıq qapı" günündə iştirak etmək üçün yeməkxanaya daxil olanda burada böyük canlanma yarandı. Müdafiə naziri tədbir iştirakçılarını salamladıqdan sonra dedi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, bu gün hərbi hissə və birləşmələrdə "Açıq qapı" günü keçirilir. "Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri bu tədbirlərdə iştirak edirlər. Bu tədbirləri keçirməkdə əsas məqsədimiz odur ki, valideynlərlə tez-tez görüşək, onların qayğıları, problemləri ilə yaxından maraqlanaq, əgər hansısa bir çətinlik varsa, onları həll edək. Belə tədbirlərdə siz valideynlər övladlarınızla görüşür, onların xidmət yerləri, məişət şəraiti ilə yaxından tanış olursunuz. Görürsünüzmü, əsgərlərimiz müasir tələblərə cavab verən necə gözəl yataqxanalarda yaşayır, necə rahat şəraitdə xidmət edirlər. Quruculuq işlərimiz daim davam edəcəkdir. Hərbi hissələrimiz yenilənəcək, təzələnəcək və müasirləşəcək. Budəfəki "Açıq qapı" günü əlamətdar bayramlara - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni ilə təsadüf edib. Fürsətdən istifadə edərək sizin hər birinizi bu əziz bayramlar münasibətilə ürəkdən təbrik edir, həm şəxsi həyatınızda, həm də xidmətinizdə uğurlar arzulayıram. İnanıram ki, bu bayramlar hamınız üçün yaddaqalan olacaq.”

Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışını bitirdikdən sonra bayram tortunu kəsdi. Sonra tədbirdə iştirak edən uşaqlara bayram hədiyyələri verdi. Əsgər valideynləri ilə bir yerdə nahar etmək üçün masa arxasında oturdu.

"Açıq qapı" günündə iştirak edən valideynlərlə, zabit və əsgərlərlə söhbət etdim, onların ürək sözlərini dinlədim. Əsgər anası Təranə Xəlilova dedi ki, "Açıq qapı" günlərinin keçirilməsi biz valideynlərin ürəyincədir. Çünki biz bu günlərdə hərbi hissəyə gəlib həm övladlarımızı görür, həm də onların xidmət yerləri ilə yaxından tanış oluruq, komandirləri ilə görüşüb söhbət edirik. Bilirik ki, əsgər balalarımızın nə xidmətlərində, nə yataq yerlərində, nə qidalanmalarında heç bir narahatlıq yoxdu. Hər addımda açıq-aydın hiss edirik ki, ordumuz getdikcə güclənir, qüdrətini artırır. Buna görə də övladlarımız hərbi xidmətə böyük həvəslə gəlirlər. Belə qüdrətli bir ordunun sıralarında xidmət etməkdən qürur duyur, fəxr edirlər.

- Yaxın qohumum Tural bu hərbi hissədə əsgərdir, onun yanına gəlmişik, - deyə Vüsal Əsgərov söhbətimizə qoşuldu. - İlk dəfədir ki, bu hərbi hissədə oluram. Gördüyüm səliqə-sahmandan, nizam-intizamdan, əsgərlərin xidmət şəraitindən ürəyim açıldı. Mən keçmiş İttifaqın ordusunda xidmət etmişəm. Neçə illərin ölkəsinin ordusunda bu şərait yox idi. "Açıq qapı" günlərinin keçirilməsi valideynlərə qarşı böyük bir diqqət və qayğıdır. Valideynlər üçün belə şərait yaratdığına görə ölkə və ordu rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Gizir Hikmət Cəbiyev 14 ildir ki, hərbi xidmətdədir. "Açıq qapı" gününə övladlarım Əli və Gülayı da gətirirəm. Oğlum Əli hazırda birinci sinifdə oxuyur. Hərbi sahəyə böyük maraq göstərir. İnanıram ki, o, gələcəkdə atasının yolunu davam etdirəcək,” - deyə gizir H.Cəbiyev dedi.

Polkovnik-leytenant Rauf Niyazov valideynlərin "Açıq qapı" günündə fəal iştirak etmələri üçün hərbi hissədə hərtərəfli şərait yaradıldığını bildirdi. “Valideynlər komandanlığın övladlarının xidmət keçmələri üçün yaratdıqları şəraitdən razı qalırlar, xoş sözlər deyirlər. İnanıram ki, bu gün keçirilən tədbir həm valideynlər, həm də əsgərlər üçün yaddaqalan olacaq.”

"Açıq qapı" gününə qatılan Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tədbirin daha da maraqlı və yaddaqalan olması üçün rəngarəng musiqi nömrələri səsləndirdilər. Qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**





"Açıq qapı" günü ordu ilə ictimaiyyət arasında münasibətlərin inancı, güvənci üçündü; "Açıq qapı" günü əsgər ata-anasının, əsgər ata-analarının timsalında ictimaiyyətin Böyük Qələbəyə inamını əminlik həddində artırır. Bu gün də həmin ovqat yaşanılır.

Hərbi hissənin qarşısında qələbəlikdi. Tədbir bir azdan başlayacaq. Hansı duyğunun təsiriylə iki atanın söhbətinə qoşuluram:

- Sevincinizin işığı çəkdi məni, - deyirəm. Gülümsünürlər. Şəki rayonundan gəlmiş Oqtay Əbdülrəhmanov dedi:

- Bu sevinc təkcə mənim, yəni, biz əsgər atalarının deyil, oğlu hərbi xidmətdən tərxis olunanların da, çağırış yaşlı oğulların atasının da sevincidi, yəni, bu elə sevincdi ki, onu ictimaiyyət yaşayır.

Hacıqabul rayonundan gələn Arif Abbasov həmsöhbətimin sözünə qüvvət olaraq dedi ki, qürurlandığı kimi, biz də əsgər atası adıyla qürurlanırıq... Bu adı yaşamaq nə qədər fərəhlidirsə, o qədər də məsuliyyətlidir. İnanırıq ki, bu fərəh əsgər oğlumuzun nümunəvi xidmətiylə daha da artacaq, bu məsuliyyət inamla, sevinclə tamamlanacaq...

Oqtay Əbdülrəhmanov və Arif Abbasovla söhbətləşdiyimiz məqamda bizdən üç-dörd addım aralıda kəlmələşənlərin söhbətini də eşidə bilirəm. Yaşlı bir kişi dedi ki, mən də, oğlum da Sovet ordusunda xidmət etmişik... Nəvəm öz ordumuza xidmət edir. Zahir hərbi xidmətə gələnəcən bunlar haqqında söhbətimiz çox olmuşdu. O da hərbi xidmətə yüksək vətənpərvərlik duyğularıyla gəlib. Hərbi andiçmə mərasimində gördüyüm təntənənin ovqatı mənə bir inamı yenidən yaşatdı: Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımız işğaldan azad ediləcəkdir. Bu inamı bu gün daha gözəl yaşayıram. Yəqin ki, bu gözəl inamı siz də mənim kimi yaşayırsınız...

O söhbət də, bu söhbət də ürəyimi dağa döndərir:

Əsgər ataları, əsgər analarının timsalında ictimaiyyət orduya güvənir. 2016-cı ilin Aprel döyüşlərində təsdiqlənən gücü, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar bunu bir daha təsdiqlədi.

Gəncə Dövlət Universitetinin tarix müəllimi Hüseyn Bəxtiyarov Azərbaycan Ordusunun dünyanın ən güclü ordular sırasında olmasından söz açdı.

"Açıq qapı" günündə tədbir iştirakçıları şəraitlə tanış oldular. Bir əsgər anası fərəhlə deyirdi:

- Oğlumun Hərbi andiçmə mərasiminə gələ bilməmişdim, atası gəlmişdi. Qayıdandan sonra buradakı şərait haqqında ağızdolusu danışırdı. Eşitdiklərimi gördüm, könlüm açıldı, sevincim aşıb-daşdı. Mən, xoşbəxt anayam, mən əsgər anasıyam!..

Tədbir böyük könül xoşluğuyla davam etdi. Qoşa qolları əsgər oğlunun kürəyində çarpazlaşan analar Böyük Qələbə günündə bütün əsgərləri öz oğlu kimi bağrına basacaqlar. Həmin günün ərəfəsindəyik...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrdə "Açıq qapı" günü

(Əvvəli 4-cü səhifədə)

Vətənimizin, xalqımızın gələcəyini düşünən ümummilli liderimiz Heydər Əliyevin zamanı qabaqlayan parlaq siyasi zəkası və uzaqgörənliyi ilə söylədiyi "Vaxt gələcək Azərbaycan güclü silahlara, peşəkar zabitlərə, qısası, qüdrətli orduya sahib olacaq" fikri bu gün tam mənasıyla həyata keçib. "Açıq qapı" günündə iştirak edən hər kəs də bunun canlı şahidi oldu.

Xalq, dövlət orduya güvənir. Ordu da xalqın, dövlətin dəstəyini daim hiss edir. Dövlətimizin orduya olan diqqət və qayğısı əsgər və zabitlərimizin döyüş ruhunu daha da artırır.

Hərbi hissələrimizdən birində keçirilən "Açıq qapı" günündə iştirak edərkən tədbirin xalq ilə ordu arasında bir növ körpü rolunu oynadığının canlı şahidi oldum. Burada iştirak edən hər kəsin üzündən təbəssüm, razılıq ifadəsi oxunurdu.

Övladının boy-buxununa baxmaqdan doymayan əsgər anasıyla söhbətləşərkən məlum oldu ki, Cəlilabad rayonundan gəlib. Şəfiqə Əzizova dörd oğul anasıdır. Üç oğlunun Vətən qarşısında müqəddəs borcunu verməsindən çox qürurludur. Şəfiqə ana ilk olaraq, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürünü bildirdi. Belə tədbirlərin bəyənilən, çox təqdirəlayiq bir hal olduğunu vurğuladı. Xalqla ordunun birliyini yenilməz güc, qüvvət kimi dəyərləndirən əsgər anası qeyd etdi ki, bu gün biz valideynlər dövlətimizin əsgərinə yaratdığı şəraitlə tanış olarkən sevincdən ürəyimiz dağa döndü. "Ordumuz gündən-günə güclənir. Əsgərlərimizin şəraitinə baxanda adamın ürəyi açılır. Yataq yerləri, hamam-camaşırxana və yeməkxananı gördüm. Hər tərəf təmiz və səliqəlidir".

Bütün əsgərləri doğma övladı bilən Şəfiqə ana əsgərlərin şəraitinin çox yüksək olmasından sevincə qarışıq sevgiylə danışdı. Yeməkxana ilə tanışlıq əsnasında mətbəxə də baş çəkən valideyn burada müasir dövrün tələblərinə cavab verən avadanlıqların olması və milli xörəkləri qadın aşpazların hazırlamasından çox razı qalıb. Övladı ilə birlikdə əsgərlərimizin nahar süfrəsinə qonaq oldu.



Söhbət əsnasında ana oğlu Kamalın müddəti həqiqi hərbi xidməti bitdikdən sonra da orduda qalıb həyatını bu peşəyə bağlamaq istədiyini dilə gətirdi.

Muradovlar ailəsi "Açıq qapı" gününə İmişli rayonunun Mürsəlli kəndindən gəliblər. Oğulları gənc əsgərdir. İlk dəfədir ki, "Açıq qapı" günündə iştirak edirlər. Valideynlər övladlarının andiçmə mərasimində iştirak edərkən hərbi hissə ilə tanış olsalar da, bugünkü tanışlıqları daha əhatəli oldu.

Əsgər atası adının yaratdığı qeyri-adi hisslərdən söz açan Murad Muradov Silahlı Qüvvələrin Ali Baş Komandanına, eləcə də Müdafiə nazirinə dərin təşəkkürünü bildirərək dedi:

- Ordumuz regionun ən güclü ordusudur. Aprel döyüşləri ordumuzun gücünü təsdiqlədi. Bu gün gördüklərimdən sonra tam əminliklə deyərdim ki, belə ordusu, yüksək mənəvi-psixoloji və döyüş hazırlığına malik əsgəri, zabiti olan ordu torpaqlarımızı işğaldan azad edəcək.



Valideyn söhbətində, həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənovun davamlı olaraq ön xətdə olmasını, bayramları səngərdə əsgərlərlə birlikdə keçirməsini vətənpərvərlik nümunəsi adlandırdı.

- Qürur, fəxr hissi ilə demək istəyirəm ki, ordumuzda əsgərlərin nümunəvi xidməti, istirahəti, məişəti üçün yüksək şərait yaradılıb. Bir dövlətin gücü, qüdrəti məhz onun ordusunun hansı səviyyədə olmasından asılıdır. Bu gün burada gördüklərimdən sonra tam əminliklə deyərdim ki, müasir ordusu, qabaqcıl hərbi texnikası, əsgərinin mənəvi-psixoloji və döyüş hazırlığı güclü olan xalqımızın qarşısında düşmən heç vaxt tab gətirə bilməyəcək. Belə bir orduda qulluq etmək qürurvericidir. Yeri gəlmişkən, qeyd edim ki, müasir gənclərimiz, övladlarımız çox xoşbəxtdirlər. Çünki onlar öz doğma Vətənlərində müddətli həqiqi hərbi xidmət keçirlər. Ordumuza inanırıq və övladlarımızı çox böyük güvənc, inam hissi ilə hərbi xidmətə yola salırıq.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində təşkil edilən "Açıq qapı" günündə ictimaiyyət nümayəndələri ilə görüşdük və onlardan təəssüratlarını öyrəndik.

Əsgər babası Nəriman Bədirov:

- Biz Tovuz rayonunun Əyyublu kəndindən nəvəm əsgər Elbəyi Bədirovun, onun əsgər yoldaşlarının ziyarətinə bayram günlərini təbrik etməyə gəlmişik. 76 yaşım var. Bu gün xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını qeyd edir. Yeni il ölkəmizə, xalqımıza xoş firavan günlər gətirsin. Bu günü bütün dünya azərbaycanlıları bayram edir, hər kəsi birliyə, həmrəyliyə səsləyirəm. Tezliklə torpaqlarımız düşmən tapdağından azad olunsun. Bilirik ki, bu gün bütün hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilir. Biz də elə ona görə gəldik ki, əsgərlərimizin bayramlarını təbrik edək. Elbəyi Bədirov mənim oğul nəvəmdir. Mərd, vətənpərvər əsgərdi. Manqa komandiridi. Dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən valideynlərinə təşəkkür məktubu göndərilib. Mən də Vətənimizin keşiyində dayanan Azərbaycan əsgərləri ilə fəxr edirəm. Komandirləri Elbəyinin xidmətindən razılıq edirlər. Deyirlər ki, məsuliyyətlidir, işinə vicdanla yanaşır. Mən bir baba kimi inanıram ki, sabah Ali Baş Komandanımızın "Döyüş" əmri olarsa, Elbəyi öndə gedən əsgərlərimizdən olacaq. O, torpaqlarımızı düşmən tapdağından azad etməyə həmişə hazır olan əsgərlərimizdəndir. Hərbi hissələrimizdə yaradılan yüksək şəraitə görə dövlətimizin başçısı İlham Əliyevə, ordumuzun rəhbərliyinə minnətdarlığımı bildirirəm. Ordumuz güclüdür. İnanıram ki, müdrik dövlət rəhbərimizin sayəsində, xalqımızın göstərdiyi birliyin gücü ilə qəhrəman Azərbaycan əsgəri tezliklə torpaqlarımızdan erməniləri qovacaq, soydaşlarımız öz doğma yurduna, el-obasına qayıdacaqlar.

Əsgər anası Samirə Nağıyeva:

- Hərbi hissə ilə tanışlığımız ilk dəfə Hərbi andiçmə günü oldu. Burada əsgərlərimiz üçün çox gözəl şərait yaradılıb. Böyük yeməkxanası, tərtəmiz yataqxanaları var. Adam içəri girən andan ürəyi açılır. Sağ olsun Prezidentimiz, Ali Baş Komandanımız əsgərlərimizə bu cür gözəl şərait yaradıb. Bir əsgər anası, bir əsgər valideyni olaraq fəxr edirəm ki,



mənim övladım Altun Nağıyev də bu gün ordumuzun sıralarında xidmət edir, Vətənə övladlıq borcunu verir. Biz Altunu Vətənə əsl övlad kimi böyütmüşük. Onun Hərbi andı qəbul etdiyi günü heç zaman yadımızdan çıxartmayacağıq. Əsgər anası olaraq həmin anı qürur anı kimi yaşadım. Bizim çox güclü ordumuz var. Ordumuz tezliklə erməniləri torpaqlarımızdan qovacaq. Bu gün həyat yoldaşımla birlikdə "Açıq qapı" günündə iştirak etməyə gəlmişik. Mən bayram günü ilə əlaqədar bütün hərbçilərimizi təbrik edir, onlara cansağlığı arzulayıram.

Əsgər atası Əfqan Şükürov:

- Mən fəxr edirəm ki, bu gün oğlum Səbuhi Vətəni, xalqı qarşısında övladlıq borcunu yerinə yetirir, Hərbi and içib ordumuzun sıralarında xidmət edir. Hərbi hissədə əsgərlərimiz üçün yaradılan şərait dünyanın ən müasir ordularında var. Bütün hərbi hissələrdə belə yüksək səviyyədə şəraitin yaradılması Ali Baş Komandanımızın orduya göstərdiyi diqqətin, qayğının nəticəsidir. Müdafiə naziri tez-tez cəbhə bölgələrində hərbçilərimizlə görüşür, onlarla söhbətlər aparır, xidmətdə fərqlənənlərə mükafatlar verir. Bütün bunlar hər bir Azərbaycan vətəndaşını sevindirir. Səbuhi xidmət etdiyi müddətdə özünü hazırlıqlı, nümunəvi əsgər kimi göstərib. Hərbi hissə komandiri tərəfindən evimizə dəfələrlə təşəkkür məktubu göndərilib. Əsgərlərimizə arzu edirəm ki, Vətənimizin keşiyində ayıq-sayıq dayansınlar, içdikləri Hərbi anda sadiq qalsınlar, xidmətlərini namusla, vicdanla yerinə yetirsinlər, evlərinə sağ-salamat geri dönsünlər. Bütün hərbçilərimizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Onlara cansağlığı, çətin və şərəfli xidmətlərində uğurlar arzulayıram.

Əsgər anası Tahirə Kərimova:

- "Oğul düşmən çəpəridir", - deyib atalarımız. Vətənin dar günündə ona arxa, dayaq oğullarımız olur. Qarabağ müharibəsi başlandığı gündən neçə-neçə qəhrəman Azərbaycan oğlu Vətən uğrunda, torpaq uğrunda canından keçib, şəhid olub. Analar şəhid övladlarını torpağa tapşırır. Onlar başlarını uca tutaraq qürurla "Təki Vətən yaşasın", - deyirlər. Mən əsgər Amil Kərimovun anasıyam. Amili "Hərbi xidmətə get, Vətəni kişi kimi qoru, Vətənin şərəfini ailənin şərəfi bil", - deyib yola saldım. Mən bir əsgər anası kimi fəxr edirəm ki, oğlum qüdrətli Azərbaycan Ordusunun sıralarında döyüşə hazırlıqlı əsgər kimi xidmət edir. Bu gün hər yerdə əsgərlərimiz üçün gözəl şərait yaradılıb. Yeməkləri, təmizlikləri gözümüzün önündədir. Hər iki bayram günü münasibətilə xalqımızı, bütün hərbçilərimizi təbrik edirəm. Allah xalqımızı qorusun. Tezliklə torpaqlarımızı düşməndən geri alaq. Torpaq həsrətində olan soydaşlarımız doğma ocaqlarına geri dönsünlər."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu: zabit yataqxanası istifadəyə verilib, hərbi hospitala bayram sovqatı aparılıb

*Ordunun gücünü təşkil edən əsas amillərdən biri də şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Bu gün Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi kimi müasir əsgər və zabit yataqxanaları, hərbçi ailələri üçün yeni yaşayış binaları tikilərək istifadəyə verilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan şəhərindəki hərbi şəhərcikdə zabit yataqxanası yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov binanın açılışını bildirən lenti kəsib.

Məlumat verilib ki, zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan bina yenidən qurulub, qapı və pəncərələr dəyişdirilib. 220 yerlik binada bütün yataq otaqlarının mebelləri yenilənib, mərkəzləşmiş antenna sistemi qurulub, telefon çəkilib, 2 VİP otaq, eləcə də növbətçi və komendant otaqları istifadəyə verilib.

Zirzəmidə bərbər, hamam, camaşırxana, qazanxana yerləşir. Binanın həyətində də abadlıq işləri aparılıb, istirahət köşkü qoyulub.

Sonra Ali Məclisin sədri hərbi şəhərcikdə görülən abadlıq işləri ilə maraqlanıb. Bildirilib ki, şəhərcikdəki bütün yaşayış binaları təmir olunub, pəncərələri dəyişdirilib, havalandırma sistemləri qurulub, elektrik, qaz, su və kanalizasiya xətləri yenilənib. Hərbi şəhərciyin ərazisi tamamilə asfaltlanıb, hərbçi ailələrinin istirahəti üçün lazımi işlər görülüb, futbol, basketbol və voleybol meydançaları yaradılıb, uşaq əyləncə qurğuları qoyulub, yollar genişləndirilib, yaşıllıqlar salınıb. Həmçinin Qarnizon tam orta məktəbində və uşaq bağçasında da təmir işləri aparılıb.

Ali Məclisin sədri hərbçilərin ailə üzvləri ilə görüşüb, onların bayramını təbrik edərək deyib: "Zabit ailələrinin normal yaşayışının təmin olunması bu gün qarşıda duran əsas məsələlərdəndir. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülür. Bu il zabit ailələri üçün 44 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Həmçinin Naxçıvan şəhərində yerləşən hərbi şəhərcikdə də zabit ailələrinin yaşayışı üçün lazımi şərait yaradılmışdır. Ərazidə müasir məktəb və uşaq bağçası, xidmət sahələri və tibb məntəqəsi fəaliyyət göstərir. Bu gün isə subay zabitlər üçün yataqxananın açılışı olmuşdur. Bütün bunlar da imkan verir ki, zabitlərimiz öz xidmətlərini rahat həyata keçirə bilsinlər."



Hərbçi ailələri adından minnətdarlıq edən Arzu Quliyeva, Kübra Məmmədova, Cəmilə Əhmədova və Şəfa Əliyeva bayram günündə hərbçilərin ailə üzvləri ilə görüşlərin keçirilməsini yüksək qiymətləndiriblər.

Hərbçi övladı Ömər Heydərov vətənpərvərlik mövzusunda şeir söyləyib.

Vəfa Gülməmmədova Ali Məclisin sədrinə bayram təbriklərini çatdıraraq deyib: "Yoldaşım zabitdir. 20 ildən artıqdır ki, Naxçıvanda xidmət edir və ailəmiz burada yaşayır. Ötən dövrdə muxtar respublikanın böyük inkişaf yolu keçdiyinə şahidlik etmişəm. Əvvəllər hərbçi ailələrinin yaşayışı üçün normal şərait yox idi. Lakin bu gün ən müasir şəhərcikdə, hərtərəfli təminatı olan mənzillərdə yaşayırıq. Övladlarımızın təhsili, asudə vaxtının səmərəli təşkili üçün bütün tədbirlər görülüb. Bu da bizi sevindirir, qürurlandırır. Dövlətimizlə, ordumuzla fəxr edirik".

Qarnizon tam orta məktəbinin şagirdi Solmaz Gülməmmədova deyib ki, hərbçi uşaqlarının təhsili üçün məktəbimizdə lazımi şərait yaradılıb, ən müasir tədris avadanlıqları quraşdırılıb. "Qardaşım 2017-ci ildə yüksək balla ali məktəbə qəbul olub, Ali Məclisin sədri ilə görüşüb. Mən də qarşıma məqsəd qoymuşam ki, yaradılan şəraitdən istifadə edərək hərtərəfli təhsil alım."

Ali Məclisin sədri bütün hərbçi ailələrini bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, hərbi şəhərcikdə gələcəkdə də abadlıq-quruculuq işlərinin davam etdirilməsi barədə tapşırıqlar verib.

* * *

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu milli həmrəylik bu gün müstəqil Azərbaycanda inkişafın və sabitliyin əsas təminatıdır. Dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən həmrəylik bayramı xalq-ordu birliyinin də əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikasında da xalq-ordu birliyi ilbəil möhkəmləndirilir, həmrəylik bayramında əsgərlərlə görüşlər keçirilir, onlara sovqatlar təqdim olunur.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Qarnizonunun Hərbi Hospitalına gəlib, burada müalicə olunan əsgərlərlə görüşüb, onların səhhəti ilə maraqlanıb.

Bildirilib ki, muxtar respublika ərazisindəki hərbi hissələrdə əsgərlərin məişət şəraiti, qidalanması və sağlamlıqlarının qorunması diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, hazırda Naxçıvan Qarnizonunun Hərbi Hospitalına müraciət edən xəstələrin sayı kəskin azalıb. Eyni zamanda, infeksion və yoluxucu xəstəliklərlə bağlı müraciət qeydə alınmayıb.

Hospitalda müalicə olunan əsgərlərdən Rahib Ağalarzadə, Orxan Ramazanov və tibb bacısı Nəzakət Qafarova hərbi hospitalda müalicə olunan xəstələr və kollektiv adından Ali Məclisin sədrinə minnətdarlıq edib, bayram təbriklərini çatdırıblar.

Həkim Fail Məmmədov deyib: "Bu gün hərbi hospitalda tibbi xidmətin təşkili üçün lazım olan hər cür şərait var. Bayram günündə Ali Məclis sədrinin hospitalda olması, burada müalicə olunan hərbçilər və kollektivlə görüşməsi göstərilən diqqətin daha bir ifadəsidir. Etiraf etmək lazımdır ki, Ali Məclis sədrinin tövsiyələrinin əsas götürülməsi işimizi düzgün təşkil etməyə imkan verir. Artıq Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçuların sağlamlığının qorunması sahəsində heç bir problem yoxdur. Bütün bunlara görə minnətdarlıq edirik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov kollektivə təşəkkür edərək deyib: "Bu gün Naxçıvan Qarnizonunun Hərbi Hospitalında tibbi heyət tam formalaşmışdır. Bununla yanaşı, istər ucqar dağ və sərhəd bölgələrində, istərsə də mərkəzdə hərbi hissələr üçün müasir xidmət və yaşayış komplekslərinin istifadəyə verilməsi, əsgərlərin qidalanmasının və geyiminin diqqətdə saxlanılması xəstəliklərin sayını xeyli azaltmışdır. Görülən işlərin davamı kimi, hazırda Naxçıvan şəhərində regionun ən müasir hərbi hospitalı tikilir. Bütün bunlar ölkəmizdə uğurla davam etdirilən ulu öndər Heydər Əliyev yolunun, mövcud sabitliyin və iqtisadi inkişafın bəhrəsidir."

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanıb, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə də bayram sovqatları paylanıb, müxtəlif adda ərzaq məhsulları anbarlara təhvil verilib.

# Hərbi pilot Rəşad Atakişiyevin “Şücaətə görə” medalı ailəsinə təqdim olunub

*Müdafiə nazirinin tapşırığına əsasən, Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov təlim-məşq uçuşları zamanı qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin ailəsinə baş çəkib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərhum pilotun ailə üzvlərini bayramlar münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edən nazir müavini bildirib ki, R.Atakişiyev Azərbaycan Ordusunda xidmət etdiyi müddət ərzində peşəkar, nümunəvi, vətənpərvər zabit kimi tanınıb və onun xidmətləri həmişə yüksək qiymətləndirilib.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən göstərdiyi xidmətlərə görə ölümündən sonra təltif olunduğu Azərbaycan Respublikasının "Şücaətə görə" medalı bayram ərəfəsində polkovnik-leytenant R.Atakişiyevin ailəsinə təqdim edilib.

Medalı təqdim etdikdən sonra general-leytenant Ramiz Tahirov hərbi pilotun ailəsinin qayğıları ilə maraqlanıb və bayram hədiyyələri təqdim edib. R.Atakişiyevin ailə üzvləri göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

# Hərbi hospitalda müalicə olunan hərbi qulluqçular ziyarət olunub

*Respublikamızda son illər baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına əsaslı təkan verib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkə səhiyyəsinin tərkib hissəsi olan hərbi səhiyyə də yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi səhiyyəmizin müasir dövrdə bütün xüsusiyyətlərinə görə yeni inkişaf mərhələsini yaşaması ölkəmizin iqtisadi gücünün, ordumuzun inkişafının təzahürüdür.*



Bu gün Azərbaycan Ordusunda səhiyyənin idarə olunması, hərbi tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, onların müasir tibbi avadanlıqlarla təchiz edilməsi, tibbi idarəetmədə və müalicə proseslərində texnologiyanın ən son nailiyyətlərindən istifadə olunması və digər irimiqyaslı tədbirlər həyata keçirilməkdədir. Bütün bu uğurlar hərbi səhiyyənin dünya standartları üzrə inkişafına, onun dünyanın qabaqcıl ölkələri ordularının səhiyyə sisteminə ardıcıllıqla inteqrasiya edilməsinə zəmin yaradan amillərdir.

Azərbaycan Ordusunda şəxsi heyətin sağlamlığını, sağlam həyat səviyyəsini qorumaq və hərbi qulluqçuları diqqət mərkəzində saxlamaq Müdafiə Nazirliyi rəhbərliyinin qarşısında dayanan başlıca vacib məsələlərdən biridir. Bu məqsədlə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev Silahlı Qüvvələrin Baş Klinik Hospitalında oldu.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin hospitalın binasında ucaldılan büstü önünə gül dəstələri qoyuldu və xatirəsi ehtiramla yad edildi.

General-mayor N.Əliyev hospitalın tibb heyəti və orada müalicə olunan hərbi qulluqçularla görüşərək, onlara Müdafiə nazirinin bayram təbriklərini çatdırdı. İdarə rəisi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlar barədə danışdı. O, hərbi tibb müəssisələrinin müasir avadanlıqlarla təchiz edilməsi, müayinə və müalicə işinin təkmilləşdirilməsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin sağlamlıq vəziyyətinin qorunması, tibbi təminatın müasir tələblərə uyğun təşkil edilməsi üçün dövlət və ordu rəhbərliyi tərəfindən həyata keçirilən tədbirlərin vacibliyini qeyd etdi. "Ölkəmizdə baş verən sürətli iqtisadi inkişaf hərbi səhiyyənin də inkişafından yan keçməyib. Son illərdə dünya standartlarına uyğun inkişaf yolu tutan hərbi səhiyyəmizin inkişafı nəzərəçarpacaq dərəcədə artıb. Bütün bunlar Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsində mümkün olub. Ümumiyyətlə, Azərbaycanın səhiyyə sistemində, o cümlədən hərbi səhiyyədə aparılan uğurlu islahatların, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsinin, təchizat və kadr hazırlığı istiqamətində görülən işlərin bəhrəsini bu gün hər birimiz ordumuzun həyatında hiss edirik.

Dövlətimizin başçısının səhiyyə sahəsində müəyyən etdiyi proqramlar tibb müəssisələrimizin təmir və bərpasının, onların ən müasir avadanlıqlarla təchiz olunmasının, hərbi qulluqçuların dərman vasitələri və preparatlarla təminatının və müalicəsinin, hərbi hissələrdə tibb məntəqələrinin tikilərək istifadəyə verilməsinin, şəxsi heyətin bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunmasının başlıca istiqamətlərini təşkil edir. Ölkədə hərbi səhiyyə sahəsində aparılan islahatlar, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin göstərişinə əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb məntəqələri Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Bu gün Azərbaycanda keyfiyyətli, səviyyəli hərbi tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar mövcuddur."

"Hərbi təbabətin xüsusiyyəti hərbi xidmətdə olan vətəndaşın sağlamlığının qorunub saxlanılmasına qayğı göstərməkdir", - deyə general-mayor Natiq Əliyev sözünə davam etdi. - Onun nəzəri əsası tibb elmi olsa da, qoşunların şəxsi heyətinin spesifik şəraiti, döyüş travmaları və müharibə dövrü xəstəliklərinin özünəməxsusluğu, eləcə də qoşunların təşkilati quruluşunun xüsusiyyətləri mülki səhiyyədəki qayda və tələblərdən tamamilə fərqlənir. Hərbi həkim müalicə-təxliyə, sanitariya-gigiyenik və əks-epidemik tədbirləri eyni vaxtda yerinə yetirir və ondan yüksək peşəkarlıq tələb olunur. Sevindirici məqam odur ki, bu gün Azərbaycan Ordusunun hərbi həkim kontingentinin peşəkarlıq səviyyəsi çox yüksəkdir. Bu amil hərbi səhiyyəmizin nüfuzunun beynəlxalq aləmdə yüksəlməsinə öz təsirini göstərməklə yanaşı, səhiyyə işçilərimizin öz vəzifələrinin öhdəsindən layiqincə gəlməsinə imkan yaradır.



Sonda idarə rəisi şəxsi heyəti 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etdi. "Hər birinizə cansağlığı, səadət, rifah, dövlətimizin və cəmiyyətimizin tərəqqisi yolunda uğurlar diləyirəm. Ali Baş Komandanımızın rəhbərliyi ilə doğma Azərbaycanımıza qələbə müjdələri və nurlu gələcək arzulayıram".

General-mayor Natiq Əliyev Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Oftalmologiya, Pulmonologiya, Otolarinqologiya, Endokrinologiya, Reabilitasiya, Təxirəsalınmaz İntensiv Terapiya və s. bölmələrinə baş çəkdi. İdarə rəisinə bildirildi ki, hazırda hospitalda yatan xəstələrin müalicəsi istiqamətində zəruri tədbirlər görülür. Hospitalın tibb heyəti onların tezliklə sağlamlıqlarına qovuşmaları üçün əllərindən gələni edirlər. General-mayor Natiq Əliyev müalicə alan hərbi qulluqçulara Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini çatdırdı, bayram sovqatlarını təqdim etdi və onların tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzuladı.

Görüşün sonunda Müdafiə nazirinin əmri ilə hərbi qulluqçulara verilən rütbə və medallar general-mayor Natiq Əliyev tərəfindən təqdim edildi.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda növbəti snayper hazırlığı kursu başa çatıb



Naxçıvan Qarnizonu qoşunlarında növbəti snayper hazırlığı kursu uğurla başa çatıb. Bu münasibətlə keçirilən mərasimdə əvvəlcə Türkiyə və Azərbaycan Respublikalarının Dövlət himnləri səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, çıxış edənlər kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək hər iki ölkə arasında mövcud olan hərbi əməkdaşlığın və snayper hazırlığı kursunun əhəmiyyətindən danışıblar.

Sonda məzunlara sertifikat və hədiyyələr təqdim edilib, kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub.

# Azərbaycan Respublikasının yeni Ombudsmanı Hərbi liseydə olub

*Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsman) təsdiq etdikləri birgə tədbirlər planına əsasən, Ombudsman Səbinə Əliyevanın rəhbərliyi ilə aparatın əməkdaşları Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar əvvəlcə Hərbi liseyin Heydər Əliyev Muzeyinə gələrək burada Ümummilli Liderin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri qoyublar. Muzeylə tanışlıqdan sonra Ombudsman muzeydəki xatirə kitabına öz ürək sözlərini yazıb.

Sonra qonaqlar Hərbi liseyin tədris korpusu, tibb məntəqəsi, idman kompleksi, eləcə də kursant yataqxanası, yeməkxana və digər inzibati binalara baş çəkiblər.

Sonda Hərbi liseyin klubunda şəxsi heyətlə görüş keçirilib, tədrisdə, nizam-intizamda fərqlənən kursantlara xatirə hədiyyələri təqdim olunub.



# Gənc əsgərlər xidmət yerlərinə yola salınıblar

*Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin növbəti xidmət yerlərinə yola salınması mərasimi keçirilib. Müxtəlif hərbi ixtisaslara yiyələnən gənc əsgərlər öz bacarıqlarını nümayiş etdiriblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Azərbaycan Respublikasının Dövlət himninin səsləndirildiyi tədbirdə çıxış edən polkovnik Mehman Gülməmmədov əsgərləri ixtisas hazırlığı kursunu uğurla başa vurmaları münasibətilə təbrik edib.

Bildirilib ki, gənc əsgərlərin ixtisas hazırlığı dövründə dərslər tədris proqramına uyğun olaraq keçirilib. Tədris prosesində əsas diqqət praktiki məşğələlərə yönəldilib və bu məqsədlə bütün silah növlərindən atışlar, zirehli və avtomobil texnikalarından isə praktiki sürücülük çalışmaları icra olunub.

Ölkəmizdə sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, ordu quruculuğunun da mühüm amillərdən biri hesab olunduğunu vurğulayan valideyn Təməddin Hüseynov əsgərlərə hərbi xidmətlərində uğurlar arzulayıb.

Əsgərlər adından çıxış edən Elçin Əhmədov Azərbaycan Ordusunda xidmətilə qürur duyduğunu bildirib və bundan sonra da hərbi biliklərini təkmilləşdirəcəklərinə söz verib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Fazil Ağalarov bildirib ki, bu gün Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, ən müasir silah-sursat və texnika ilə təminatına xüsusi diqqət yetirilir. “Azərbaycan Respublikasının Prezidentinin diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fədakar əməyi sayəsində bu gün Naxçıvanın müdafiəsi yüksək səviyyədə təmin olunur. Əminliklə deyə bilərik ki, ixtisas hazırlığı kursunu uğurla başa vuran əsgərlər də qazandıqları nəzəri bilikləri və praktiki vərdişləri daha da təkmilləşdirəcək, Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda ən çətin döyüş tapşırıqlarını şərəflə yerinə yetirəcəklər.”

Təbrik oxunduqdan sonra müxtəlif ixtisaslar üzrə elementləri praktiki yerinə yetirən əsgərlər qazandıqları bilik və bacarıqları peşəkar döyüşçü kimi nümayiş etdiriblər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar. Təntənəli keçiddən sonra "Əlahiddə Ümumqoşun Ordunun marşı" ifa olunub.



Mərasim başa çatdıqdan sonra əsgər valideynləri və yaxınları hərbi hissədə yaradılmış şəraitlə tanış olub və əsgərlərlə birlikdə nahar ediblər.

# Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində bayram tədbiri keçirilib

*Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramına həsr olunmuş tədbir keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə liseyin rəisi general-mayor Məhəmməd Həsənov hər iki bayram münasibətilə kursantları təbrik edib.

Bildirilib ki, 31 dekabr Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bütün dünyada yaşayan soydaşlarımız tərəfindən hər il milli birlik və həmrəylik günü kimi qeyd olunur. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu günün başlıca qayəsini Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətəninə bağlılıq hissləri və ideyaları təşkil edir. Belə tədbirlərin keçirilməsi kursantlara vətənpərvərlik, dövlətçilik ənənələrini aşılamaqla yanaşı, onlarda Vətənimizə, xalqımıza olan sevgi hisslərini daha da artırır.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs ansamblı konsert proqramı ilə çıxış edib, kursantlar tərəfindən mahnılar ifa olunub.

# Heydər Əliyev adına AAHM-də “Tariximiz - qürur və şərəf mənbəyimizdir” adlı viktorina keçirilib

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş viktorina keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məktəbin quru qoşunları, hərbi hava qüvvələri, hava hücumundan müdafiə və hərbi dəniz qüvvələri fakültələrində təhsil alan kursantlar arasında keçirilən "Tariximiz - qürur və şərəf mənbəyimizdir" adlı viktorina tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Fakültə komandaları şəklində yarışan kursantlar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Viktorinanın yekun nəticələrinə əsasən, Hərbi Hava Qüvvələrinin kursantları birinci yerə layiq görülüblər.

Gizir Qaraxanov Elvin Yenişar oğluna 2018-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1
Nüsxə 4000